# Qəbələ VII Beynəlxalq Musiqi Festivalının vaxtı müəyyən edildi



AZƏRTAC-ın verdiyi məlumata görə Heydər Əliyev Fondunun və Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi ilə Qəbələ VII Beynəlxalq Musiqi Festivalı bu il iyulun 25-dən 31-dək keçirilməsi nəzərdə tutulur. Mədəniyyət və Turizm Nazirliyindən alınan məlumata görə bu ilki festivalın da proqramı olduqca zəngidir. Belə ki, bu festivalda Rusiya, Ukrayna, İtaliya, İspaniya, İsrail, Avstriya, Xorvatiya, Almaniyadan dünya şöhrətli musiqiçilər və kollektivlər–İtaliya simfonik Orkestri, "Moskva virtuozları" kamera orkestri, Avstriya Vayner Akademiyasının kamera ansamblı, "Flamenko" ansamblı, "Dubrovnik Guitar Trio", Andrey Qavrilov, Oksana Yablonskaya, Cankarlo Pazolini, Janna Gandelman, Aleksandr Rojdestvenski, Jeremi Menuxin, Paul Meyer, Aleksandr Gindin, Taras Yaqopud və başqaları iştirak edəcəklər.

Qeyd edək ki, 2009-cu ildə ənənəvi olaraq keçirilən bu festivallar ölkəmizdə və onun hüdudlarından kənarda böyük əks-səda doğurub. Festival konsertlərində görkəmli musiqiçilər, bədii kollektivlər, solistlər, dirijorlar iştirak edib.

# Bakı ən gözəl 10 şəhərdən biri kimi

Dünyanın ən çox satılan bələdçilərindən olan «Lonely Planet» nəşri Avropanın ən yaxşı yerlərinin siyahısını təqdim edib. Siyahıda Azərbaycanın paytaxtı Bakı ilk onluqda 7-ci sırada yer alıb. Bakı həmçinin post sovet ölkələrindən siyahıda yer tutan yeganə şəhər olub. Paytaxt Bakının Avropanın bir hissəsi kimi göstərildiyi siyahıda şəhərin qitənin ən sürətli dəyişən məkanlarından biri olduğu bildirilir.

Nəşrdə Bakı şəhərinin sovet zamanındakı görünüşünün sürətlə Dubay və Paris parıltısı ilə əvəz olunduğu qeyd olunub. Bakının yeni memarlıq simvolu olan Heydər Əliyev Mərkəzi, YUNESKO-nun «Dünya İrsi Siyahısı»na daxil edilmiş İçərişəhər və yaradıcı işıq şousu ilə gecələr göz oxşayan Alov qüllələrinin adları xüsusi olaraq vurğulanır.

# Yeyinti məhsullarının istehsalında standartların tələblərinə nəzarət gücləndirilir

Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi qanunvericiliyin tələbinə əsasən genetik modifikasiya olunmuş bitkilərin genetik materiallarından istifadə edilərək istehsal olunan yeyinti məhsullarının qanunsuz dövriyyəsinin qarşısının alınması və istehlakçıların hüquqlarının qorunması məqsədilə bir sıra zəruri tədbirləri görməyi qərara alıb. Bu qərarla genetik modifikasiya olunmuş bitkilərin, yaxud müasir biotexnoloji və gen mühəndisliyi metodları ilə yaradılmış kənd təsərrüfatı bitki materialları ilə bağlı ciddi tədbirlərin görülməsi nəzərdə tutulur.

Komitədən verilən məlumata görə, yeni hazırlanan standartlaşdırma üzrə normativ sənədlərdə yeyinti məhsullarının istehsalında genetik modifikasiya olunmuş bitkilərin genetik materiallarından istifadəsinin qadağan edilməsi ilə bağlı tələblər əks olunacaq. Hazırda yeyinti məhsullarının istehsalı zamanı genetik modifikasiya olunmuş bitkilərin genetik materiallarından istifadə olunmamasını göstərən qablaşdırma və nişanlama üzrə tələbləri müəyyən edən standartlar hazırlanır və mövcüd sənədlərə dəyişikliklər edilir.

Dövlət Akkreditasiya Xidməti akkreditasiya olunmuş sertifikatlaşdırma qurumları və sınaq laboratoriyaları üzərində nəzarət tədbirlərini gücləndirib. Bundan sonra yeyinti məhsullarını sertifikatlaşdıran orqanlar məhsulların tərkibində genetik modifikasiya olunmuş bitkilərin genetik materiallarının olmadığını sübut edən sınaq nəticələri əsasında sertifikatlaşdırma işlərini apara bilər. Əks təqdirdə qanunvericiliyin tələblərini pozmaqla uyğunluq sertifikatı verən qurumların akkreditasiya attestatı ləğv ediləcək və qanunvericiliklə nəzərdə tutulmuş digər tədbirlər görüləcək.

Komitə yanında Texniki Tənzimləmə və Standartlaşdırma üzrə Dövlət Nəzarəti Xidmətinə yeyinti məhsulları ilə əlaqədar yoxlamaların aparılması zamanı genetik modifikasiya olunmuş bitkilərin genetik materiallarından istifadənin qadağan olunması ilə əlaqədar qanunvericiliyin və standartlaşdırma üzrə normativ sənədlərin tələblərinə riayət olunmasına nəzarəti gücləndirmək tapşırılmışdır.

Məlumat üçün bildirək ki, "Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikası Qanununun 9-cu maddəsi ilə yeyinti məhsullarının istehsalında genetik modifikasiya edilmiş bitkilərin genetik materiallarının istifadəsi qadağan olunub.

TARİXİ VƏRƏQLƏYƏRKƏN...

# Qəbələnin adını tarixə yazan həmyerlilərimiz

Bu gün Azərbaycanın qədim tarixinin hər səhifəsinə nəzər saldıqda onun şan-şöhrətlə, fəxarətlə dolu illərinin şahidi oluruq.

Azərbaycanın qədim tarixi məkanında isə Qəbələnin keçmişi daha zəngin və uludur. 2500 illik tarixə malik qədim Qəbələ 900 il keçmiş Alban dövlətinin paytaxt şəhəri olmuşdur. Qədim dünya tarixində Böyük Plini "Təbii tarix" əsərində Qəbələnin adını çəkmiş, özünəməxsus füsunkar, zəngin təbiəti haqqında gözəl sözlər söyləmişdir. Bütün bunlar günümüz üçün maraqlı və fərəhgətiricidir. Əzəmətli, bol-bərəkətli torpağımızın adının tarixə qovuşması qədim tarixin silinməyən səhifələridir. Tarixin səhifəsində belə bir ifadələr var: "Albaniyada 29 şəhərdən ən möhtəşəmi Qəbələdir". "Albaniyada başlıca şəhər Kabalakadır" , "Onun münbit torpaqları var" .

Bəli, Qəbələ bu gün də Azərbaycanın dilbər guşələrindən biri kimi öz təravətini saxlamışdır. Yaşıl çəmənləri, zümrüd meşələri, şaqraq şəlalələri, buz bulaqları bir sözlə zəngin təbiəti dillər əzbəridir. Təbii gözəllikləri içərisində doğulan, boya-başa çatan ziyalı insanları, şəxsiyyətləri, görkəmli simaları bu tarixə ad yazıblar. Tariximizin səhifələrində həmvətənlərimizin şanlı imzaları bu gün görünməkdədir. Belə gözəl təbiətin yetişdirdiyi görkəmli şəxsiyyətlər zaman-zaman qədim tariximizin səhifələrinə öz töfhələrini veriblər. Zəka sahibi olan şəxsiyyətlərimizin adı bu gün də Azərbaycan tarixində fərəhlə, fəxrfəxarətlə anılır.

Tariximizi vərəqləyərkən ayrı-ayrı zamanlarda yaşayan, yaradan görkəmli şəxslərin vətən, millət uğrunda göstərdiyi xeyirxah əməlləri və xidmətlərinin əvəzolunmaz olduğunu görürük. Onlar yaşadıqları dövrdə fədakar vətənpərvər kimi çalışdılar, bu günümüzə, tariximizə ərməğanlar bəxş etdilər.

Qəbələnin belə övladları çoxdur. Ilk olaraq istərdim ki, Əbubəkir Məhəmməd Qəbələlidən söhbət açım. Əslən Qəbələdən olan Əbubəkir Məhəmməd orta əsrlərdə yaşamışdır. Həmin dövrdə yetişən bu ziyalı bir alim kimi Bağdadda müəllimlik etmişdir. Bağdadda elmin sirlərini dərindən digərlərinə öyrətmək yolunda fədəkarlıq edən bu şəxs Qəbələnin adını tarixə yazmaqla bərabər bu gün bizlərə baş ucalığı gətirdi. Bu torpaqda yetişən ziyalı tariximizə qızıl səhifələr yazdı.

Həm hərb tariximizdə, həm də ədəbi sahədə ilk yeniliyi edən, ilk cığırı açan həmyerlimiz İ. Qutqaşınlı (1806-1869) olmuşdur. İsmayılbəy Qutqaşınlı Azərbaycanın görkəmli şəxsiyyətlərindən biri kimi bu gün də tariximizdə öyrənilir, araşdırılır. Azərbaycanın görkəmli siması olan bu şəxs hərb tariximizdə ilk general-mayor, ədəbiyyat sahəsində isə realizmin, ilk nəsr əsərinin bünövrəsini qoyan maarifpərvər olmuşdur. Onun həyat və yaradıcılığı həm tarixi, həm də ədəbi baxımdan cox zəngindir. İ. Qutqaşınlı həmin illərin çar Rusiyasının təlim-tərbiyəsini görsə də Vətən eşqilə daim milləti naminə çalışmış, qəlbində Vətən abu-havası ilə yaşamışdır. İ. Qutqaşınlı 30 il rus ordusunda xidmət etmişdir. 1822-ci ildə 16 yaşında ilk hərbi qulluğa başlamış, əzm və fədakarlıqla çalışdığına görə 1850-ci il dekabrın 9-da 44 yaşında general-mayor rütbəsinə layiq görülmüşdür. Görkəmli ədib "Rəşid bəy və Səadət xanım" əsəri ilə ədəbiyyatımızda relizmin ilk nümunəsini yaratdı. Həmin dövrdə çar hakimiyyəti illərində Həcc ziyarətinə getmək böyük hünər tələb edirdi. Lakin İ. Qutqaşınlı bütün bunların nə ilə, necə nəticələnəcəyini bildiyi halda iki dəfə Həcc ziyarətinə getmişdir. Bu da onu göstərir ki, İ. Qutqaşınlı vətəninə xalqına, millətinə, dininə bağlı ziyalı olmuşdur. Onun tarixə qovuşan ömrünü əbədiləşdirmək məqsədi ilə 1986 - cı ilin sentyabrında Xatirə ev muzeyi yaradılmışdır.

**(Ardı 6-cı səhifədə).**